**PRESS-RELİZ**

# Azərbaycanda elmin statistik göstəriciləri nəşr olunub

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi "Azərbaycanda təhsil, elm və mədəniyyət" (2016) statistik məcmuəsini nəşr edib.

"Elm" bölməsinə elmi-tədqiqat və işləmələri yerinə yetirən müəssisələrin, işçilərin sayı və tərkibi, yerinə yetirilmiş elm-texniki işlərin həcmi, tədqiqat və işləmələrə çəkilən xərclər, tədqiqat və işləmələrdə istifadə olunan əsas vəsaitlər haqqında məlumatlar daxil edilib. 2016-cı ilin əvvəlinə olan məlumatlar sektorlar, müəssisələrin növləri və elmin sahələri üzrə verilib.

Statistik məcmuəyə əsasən, Azərbaycanda ötən il elmi tədqiqat və işləmələrlə 23093 mütəxəssis məşğul olub ki, onların da 16137 nəfərini (70 faizini) tədqiqatçılar təşkil edib.

Mütəxəssislərin hər üç nəfərindən birinin elmlər doktoru, fəlsəfə doktoru alimlik dərəcəsi olub. Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) 65 akademiki, 113 müxbir üzvü var, akademiklərdən 5-i, müxbir üzvlərdən isə 14 nəfəri qadındır.

Bundan başqa, elmi-tədqiqat bölmələrində tədqiqat və işləmələri yerinə yetirən, lakin elmi-tədqiqat bölmələrində ştatda olmayan 9910 elmi pedaqoji işçi ali təhsil müəssisələrində çalışır. Onların 64 faizinin alimlik dərəcəsi var.

Elmin sahələri üzrə çalışanların 8849-u qadın, 7288-i kişidir. Humanitar elmlər (68,5 faiz), tibb elmləri (52,7), təbiət elmləri sahəsində (56) qadınlar , kənd təsərrüfatı elmləri (60,3 faiz), texnika və ictimai elmlər sahəsində kişilər üstünlük təşkil edib.

**Elmin İnkişafı Fondunun mətbuat xidməti**